# TOVUZ: SƏHİYYƏ SİSTEMİ DÜZGÜN QURULMUŞDUR



Regionların sosial-iqtisadi inkişafı, abadlıq-quruculuq işləri, infrastruktur dəyişiklikləri, hər tərəfdə yeniləşmə və müasirləşmədir. Bu inkişaf və tərəqqi həyatın bütün sahələrinə nüfuz edir. Ümumi inkişaf fonunda bölgələrimizdə fəaliyyət göstərən dövlət və qeyri-dövlət qurumlarının, sosial və ictimai təşkilatların hər biri öz işini köklü şəkildə dəyişmiş, dünya birliklərinin tələb etdiyi meyarlara uyğun qurmuşdur.

Azərbaycan dövləti durmadan inkişaf edir, öz iqtisadi qüdrətini möhkəmləndirir. İqtisadiyyatın tempi artdıqca, vətəndaşlara qayğı aktual məsələyə çevrilir.

Müasir dövrdə müxtəlif xəstəliklərin artdığını nəzərə alaraq insanların sağlam həyat tərzi keçirməsi üçün respublikamızın Prezidenti cənab İlham Əliyev tərəfindən digər sahələrdə olduğu kimi səhiyyə sistemində də bir sıra mühüm qərar və sərəncamlara imza atılmışdır.

Bunun nəticəsidir ki, respublikanın hər yerində bu səpkidə durmadan ürəkaçan işlər görülür. Bu proses Tovuz rayonuna da öz müsbət təsirini göstərmişdir.

Mövzu ilə bağlı **Tovuz Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Paşa Muradova** müraciət etdik.

Baş həkim qeyd etdi ki, Tovuz rayonunun ərazisində müasir standartlara cavab verən 2 şəhər xəstəxanası, 7 kənd sahə xəstəxanası, 19 həkim məntəqəsi, 26 tibb məntəqəsi fəaliyyət göstərir. Hazırda təcili tibbi yardım şöbəsində və digər yardımçı binalarda təmir işləri aparılır. Məlumdur ki, Tovuzun düşmənlə çox yaxın məsafədə yerləşən kəndləri vardır. Həmin yaşayış məntəqələrindən Ağdam və Əlibəylidə kənd həkim məntəqələri səhiyyə naziri Oqtay Şirəliyevin imzaladığı sərəncama əsasən əsaslı təmir olunmuşdur. Sakinlər bunu vətəndaşlara göstərilən yüksək dövlət qayğısı kimi qiymətləndirirlər. Lazım olarsa, xəstənin rayon mərkəzi xəstəxanasına və ya digər tibb ocağına çatdırılması üçün göstərilən yaşayış məntəqələrinin hər birində təcili tibbi yardım avtomobilləri fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 2 fevral - 31 aprel tarixində ölkənin hər yerində əhalinin profilaktik tibbi müayinəsi həyata keçirilmişdir. Tovuz rayonunda bu aksiya yüksək səviyyədə təşkil olunaraq sakinlərə tibbi xidmət göstərildi.

Qeyd etmək lazımdır ki, rayonun bəzi ucqar dağ kəndlərinin rayon mərkəzindən uzaq məsafədə yerləşməsini, dağlıq relyefi nəzərə alaraq Mərkəzi Rayon Xəstəxanasının həkim briqadası yerlərdə tibbi müayinəni həyata keçirmişlər. Briqadanın tərkibində terapevt, pediatr, cərrah, mama-ginekoloq, otolorinqoloq, USM üzrə mütəxəssis, okulist, həkim laborant, nevropatoloq olmuşdur ki, bu da yerlərdə müayinəni tam həcmdə aparmağa imkan vermişdir. Səhiyyə Nazirliyi tərəfindən verilmiş səyyari USM aparatı, laborator ləvazimatlar vasitəsi ilə yerlərdə frontal müayinələr aparılmışdır.

Müayinələrin aparılması zamanı əhalinin bu aksiyaya tam cəlb olunması üçün rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalovun ciddi nəzarəti və tapşırığı əsasında müxtəlif təşkilatlar, icra nümayəndələri, bələdiyyə rəhbərləri yaxından iştirak və köməklik göstərmişlər.

Göstərilən müddət ərzində rayon əhalisinin profilaktik tibbi müayinəsi zamanı 106342 nəfər cəlb olunmuşdur. Bunlardan 8042 nəfərdə müxtəlif xəstəliklər aşkar edilmişdir. Xəstəlik aşkar edilmiş şəxslərdən 7647 nəfərə ambulator müalicə təyin olunmuş, 263 nəfər stasionar müalicə almışdır. 132 nəfər isə müalicə üçün Bakı şəhərinə müvafiq xəstəxanalara göndərilmişdir.

Bundan başqa, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanunu və Dövlət Proqramının icrası məqsədi ilə 0-17 yaş qrupuna aid olan əhalinin dispanserizasiyası qrafik üzrə davam etməkdədir. 2006-2015-ci il təvəllüdlü uşqlara "Elektron Sağlamlıq Kartı" verilməsi uğurla davam etdirilir.

Rayonda planlı peyvənd işləri mütəmadi olaraq davam etdirilir, belə ki, vərəm, qızılca, polimielit, hepatit B, difteriya, göy öskürək xəstəliklərinə qarşı yenidoğulmuşların peyvənd işləri həyata keçirilmişdir.

Qeyd etmək lazımdır ki, qeydiyyatda olan 3915 nəfər şəkərli diabet xəstəsi və 1061 nəfər vərəm xəstəsi pulsuz dərman preparatları ilə təmin olunur.

Sevindirici haldır ki, 2015-ci ilin əvvəlidən indiyədək 1748 nəfər diri doğuş qeydə alınmış və ana ölümü hadisəsi baş verməmişdir.

Rayon ərazisində xüsusi təhlükəli infeksiyalar aşkar edilməmiş, epidemioloji vəziyyət stabil olmuşdur.

Rayon sakinləri arasında mütəmadi olaraq həkimlər tərəfindən insanların yoluxucu xəstəliklərə yoluxmaması üçün maarifləndirici tədbirlər aparılır.

Baş həkim Paşa Muradov sonda qeyd etdi ki, dövlət başçısının səhiyyəyə göstərdiyi qayğıdan ruhlanan Tovuz rayon tibb işçiləri öz işlərini günün tələbləri səviyyəsində quraraq, peşəkarlıq fəaliyyətini təkmiləşdirəcək, rayonda sağlam nəslin yetişməsində daha məsuliyyətli addımlar atacaqlar.

**Vəli VƏLİYEV,**
**"Respublika".**